Fevralın 25-də Təhsil Nazirliyi tərəfindən direktorların işə qəbulu üzrə təkrar onlayn sınaq imtahanı keçiriləcək. Sınaq imtahanında direktor vəzifəsinə işə qəbul üzrə müsabiqədə elektron qeydiyyatdan keçən və fevralın 19-da keçirilmiş sınaq imtahanına qatılmayan şəxslər iştirak edə bilərlər.

Sınaq imtahanında iştirak etmək istəyən şəxslər 25 fevral saat 15:00-dan 18:00-dək [www.miq.edu.az/imtahan/login.php](www.miq.edu.az/imtahan/login.php) linkinə daxil olaraq şəxsiyyəti təsdiq edən sənədin fin kodunu və iş nömrəsini daxil etdikdən sonra imtahanda iştirak edə bilərlər. Namizədlər həmçinin şəxsi kabinetlərində aktivləşdiriləcək "Sınaq imtahanında iştirak et" xanasına daxil olaraq imtahana qatıla bilərlər.

Müsabiqənin test imtahanı mərhələsində olduğu kimi onlayn sınaq imtahanında da namizədlərə 90 dəqiqə ərzində əmək və təhsil qanunvericiliyi üzrə 40, məntiq üzrə 20 test tapşırığı təqdim olunacaq. Hər namizəd sınaq imtahanında 1 dəfə iştirak etmək hüququna malikdir.